# *A Ş I Q   Q Ə N D A B*

## G Ə R A Y L I L A R

### BÜLBÜL

Təzə ilin çox mübarək,
Çıxdın yenə yaza, bülbül.
Dörd tərəfdə xoş mənzərə,
Dövran olub, tazə, bülbül.

Nəğmə deyib səhər-səhər,
Gir bağçaya, qızıl gül dər,
Bir dəstə də mənə göndər,
Olarsa icazə, bülbül.

Aşıq Qəndab vurğun sənə,
Xahiş edir dönə-dönə,
Baharı yığ nəfəsinə,
Bir qonaq gəl bizə, bülbül,

### SOLTAN

Budur mənim ürək sözüm,
Ölüncən gözlərəm, Soltan.
Saralıb ömrün xəzəli
Solunca gözlərəm, Soltan.

Yamandır ayrılıq dəmi,
Canı alıb dərdi-qəmi.
Ürəyimin sən həmdəmi
Olunca gözlərəm, Soltan.

Qəndabam, Dağıstan elim,
Eşqdən lal olub dilim.
Bu cəfakeş canı, ölüm
Alınca gözlərəm, Soltan.

## Q O Ş M A L A R

### ÖYÜNMƏ

Bu dünya fanidir sənə də qalmaz,
Yığdığın dövlətə baxıb öyünmə.
Açdığın süfrəni, verdiyin nanı,
Heç zaman başlara qaxıb, öyünmə.

Dövlət əl çirkidir yuyular gedər,
Yığmaqla ömrünü eyləmə hədər,
Sonra peşimanlıq qəlbini didər
Çoxunu odlara yaxıb, öyünmə.

Aşıq Qəndab əsl haqq aşığıdır,
Katruxun, Qubanın yaraşığıdır...
Hər sözü min qəlbdən kədər dağıdır
Onun qarşısına çıxıb, öyünmə.

## SƏNƏ
*(Qızım Adiləyə)*

Dünya gözəlisən, Adilə qızım,
Tay ola bilərmi heç qəmər sənə.
Hər nə geyirsən gey bezmi, ipəkmi,
Yaraşır hər axşam, hər səhər sənə,

Gözələ xas olan xasiyyətin var,
Təmiz arzuların, xoş niyyətin var,
Nə incə, nə gözəl təbiətin var,
Qoy həsəd aparsın gözəllər sənə.

Aşıq Qəndab deyir yetibsən yaşa,
Dövlət nə gərəkdi ağıllı başa.
Yaxşı hörmət eylə qohum-qardaşa,
Afərin söyləsin bu ellər sənə.

## SORUŞ MƏNİ

Unutma yarını, ay şair Soltan,
Qəlbimin dərdini sil, soruş məni,
Salma səfərini uzaq ellərə,
Halım pərişandır bil, soruş məni.

Sağ ikən əzizlə, salginən yada,
Əbədi deyilik fani dünyada,
Yaxma ürəyimi əlinlə oda,
Sədəfli sazını çal, soruş məni.

Qəndabam, nə qədər dərdim var canda,
Yar yarı qoyarmı ahda-amanda.
Şam kimi əriyir qəlbim hicranda,
Hardasan yaxına gəl, soruş məni.

## BÜLBÜL

Təzə ilin çox mübarək,
Çıxdın yenə yaza, bülbül.
Dörd tərəfdə xoş mənzərə,
Dövran olub, tazə, bülbül.

Nəğmə deyib səhər-səhər,
Gir bağçaya, qızıl gül dər,
Bir dəstə də mənə göndər,
Olarsa icazə, bülbül.

Aşıq Qəndab vurğun sənə,
Xahiş edir dönə-dönə,
Baharı yığ nəfəsinə,
Bir qonaq gəl bizə, bülbül,

## SOLTAN

Budur mənim ürək sözüm,
Ölüncən gözlərəm, Soltan.
Saralıb ömrün xəzəli
Solunca gözlərəm, Soltan.

Yamandır ayrılıq dəmi,
Canı alıb dərdi-qəmi.
Ürəyimin sən həmdəmi
Olunca gözlərəm, Soltan.

Qəndabam, Dağıstan elim,
Eşqdən lal olub dilim.
Bu cəfakeş canı, ölüm
Alınca gözlərəm, Soltan.

# QOSMALAR

## ÖYÜNMƏ

Bu dünya fanidir sənə də qalmaz,
Yiğdığın dövlətə baxıb öyünmə.
Açdığın süfrəni, verdiyin nanı,
Heç zaman başlara qaxıb, öyünmə.

Dövlət əl çirkidir yuyular gedər,
Yiğmaqla ömrünü eyləmə hədər,
Sonra peşimanlıq qəlbini didər
Çoxunu odlara yaxıb, öyünmə.

Aşıq Qəndab əsl haqq aşığıdır,
Katruxun, Qubanın yaraşığıdır...
Hər sözü min qəlbdən kədər dağıdır
Onun qarşısına çıxıb, öyünmə.

## SƏNƏ

*(Qızım Adiləyə)*

Dünya gözəlisən, Adilə qızım,
Tay ola bilərmi heç qəmər sənə.
Hər nə geyirsən gey bezmi, ipəkmi,
Yaraşır hər axşam, hər səhər sənə,

Gözələ xas olan xasiyyətin var,
Təmiz arzuların, xoş niyyətin var,
Nə incə, nə gözəl təbiətin var,
Qoy həsəd aparsın gözəllər sənə.

Aşıq Qəndab deyir yetibsən yaşa,
Dövlət nə gərəkdi ağıllı başa.
Yaxşı hörmət eylə qohum-qardaşa,
Afərin söyləsin bu ellər sənə.

## SORUŞ MƏNİ

Unutma yarını, ay şair Soltan,
Qəlbimin dərdini sil, soruş məni,
Salma səfərini uzaq ellərə,
Halım pərişandır bil, soruş məni.

Sağ ikən əzizlə, salginən yada,
Əbədi deyilik fani dünyada,
Yaxma ürəyimi əlinlə oda,
Sədəfli sazını çal, soruş məni.

Qəndabam, nə qədər dərdim var canda,
Yar yarı qoyarmı ahda-amanda.
Şam kimi əriyir qəlbim hicranda,
Hardasan yaxına gəl, soruş məni.